# AY LƏLİ




Bu gün ayın üçüdür,
Ay ləli qurbanın olum.
Girmə bostan içidir,
Ya ləliyəm, ləli,
Ay ləliyəm, ləliyəm, ləli.

Gülü dərdim tabağa,
Yelləli qurbanın olum.
Qoydum qaldı sabaha,
Ya ləliyəm, ləli,
Ay ləliyəm, ləliyəm, ləli.

Dodaqların qənd, şəkər,
Ay ləli qurbanın olum.
Dilin badam içidir,
Ya ləliyəm, ləli,
Ay ləliyəm, ləliyəm, ləli.

Yara mehman gələndə,
Yelləli qurbanın olum.
Durar çıxar qabağa,
Ya ləliyəm, ləli,
Ay ləliyəm, ləliyəm, ləli.